# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 14 (1142) 23 yanvar - 25 yanvar 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# YARDIMLI - 2015




> **"Rayonun abadlaşdırılması prosesi gedir, tikinti gedir. Yəni, burada hər cür sosial infrastruktur mövcuddur. Sosial dövlət o deməkdir ki, dövlətin siyasətinin mərkəzində insan dayanır. Hər şey insanlar üçün, hər şey Azərbaycan vətəndaşları üçün olmalıdır və biz bunu Yardımlı rayonunun timsalında da görürük. Əvvəlki dövrlərdə də buraya böyük investisiyalar qoyulmuşdur, yenə də qoyulacaqdır. Hər bir şəhər inkişaf etməlidir. Tarixi qorumaqla müasir şərait yaratmalıyıq və yaradırıq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Azərbaycanın ən gözəl guşələrindən biri, dağlara söykənmiş dağ əzəmətli Yardımlıdı. Bu rayonun yetirmələrindən olan həmkarımız Şamxal Şabiyevlə bugünlərdə Yardımlıya etdiyimiz səfər zamanı sözün həqiqi mənasında özümüzü cənnətdə hiss etdik. Qışın bu oğlan çağında dağların, dərələrin bələndiyi qar örtüyü bu gözəlliyi bir az da artırırdı. Adam gözünü bu gözəllikdən çəkmək istəmir, ciyər dolusu qəbul etdiyi dağ havasını ruhuna da hopdurmaq istəyirdi. İnanın ki, belə məqamda Allahın Azərbaycan adlanan bu məmləkətə necə böyük bir sevgi ilə yanaşdığını, necə qucaq açdığını duymaq və bundan qürur hissi keçirmək mümkünsüzdü. Şəxsən mən işğal altında olan dağlarımızın həsrət göynərtisini burda bir anlıq unutdum. Və bunun üçün mənim bölgəyə səfərimə təşəbbüskar olmuş həmkarıma içdən gələn bir təşəkkür etiraf etdim

Bəli, dağlar qoynunda yerləşən Yardımlı özünün coğrafi şəraitinin gözəlliyinə baxmayaraq, burda yaşayan insanların da bu gözəlliyə əlavə etdikləri naxışlarla bir az da diqqətçəkən bir ünvana çevrilibdi. O qədər də böyük olmayan rayon mərkəzini bu qarlı havada gəzib-dolaşmaq adama zövq verməklə yanaşı, həm də rayonda həyata keçirilmiş abadlıq işlərini də seyr etməyə imkan verir. Ona görə də küçə və meydanlarda, xüsusilə Ulu Öndərin adını daşıyan parkda gördüklərimiz bizə deməyə əsas verirdi ki, bu gün Yardımlıda icra hakimiyyətinin başçısı və onun komandası ölkə rəhbərliyinin qarşıya qoyduğu tələb və tapşırıqları uğurla yerinə yetirir. Yəni bu bölgəyə Azərbaycan prezidenti möhtərəm İlham Əliyev cənablarının diqqət və qayğısı rayon rəhbərliyi və sakinləri tərəfindən birmənalı şəkildə gerçəkləşdirilir. Bu da o deməkdir ki, Yardımlının sosial-iqtisadi durumu hər gün müsbət şəkildə dəyişir.

Bəli, biz rayonda olarkən həmsöhbət olduğumuz rayon sakinləri, eləcə də rayon ziyalılarından olan Şəmsəddin müəllim suallarımızı cavablandıraraq vurğuladı ki, bu gün Yardımlıda böyük və diqqət çəkən işlər görülür. Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov və onun komandası planlı şəkildə rayonun müasir tələblərə uyğun şəkildə abadlaşması üçün gərəkli olan layihələri gerçəkləşdirir və yaxud da təqdim edilən layihələrin gerçəkləşdirilməsinə şərait yaradır.

Bu gün Yardımlı rayonunda görülən işlərin statistitkasına nəzər yetirsək, onda məlum olar ki, rayonun dağlıq ərazidə yerləşməsi burada əsas problem kimi yol məsələsini həmişə önə çəkir. Yəni sürüşmələr, uçqunlar, selsuların və digər təbii fəsadlar rayonun avtomobil yollarına tez-tez ziyan vurur. Təbii ki, bu da avtomobillərin hərəkətini çətinləşdirir, hətta bəzən müəyyən zamanlarda fasilələr də əmələ gəlirö. Xüsusilə rayonun ucqar kəndləri ilə əlaqələr baxımından yol məsələsi rayon rəhbərliyini həmişə düşündürən bir problemdi. Bizimlə söhbət zamanı Şəmsəddin müəllim vurğuladı ki, rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov cənablarının təşəbbüsü ilə kənd yollarının təmir edilməsi, yenidən qurulması istiqamətində xeyli işlər görülüb. Məhz bu məqsədlə xüsusi layihə hazırlanıb. Həmin layihə "Kənd investisiya layihəsi" adlanır. Artıq 2 ildir ki, bu layihə Yardımlı rayonunda həyata keçirilir. Layihənin əsas məram və məqsədi kənd yollarının təmiri, yenidən çəkilməsidir. Elə bu məqsədlə də Respublika Kənd Təsərrüfatı Nazirliyi yanında fəaliyyət göstərən Kənd Təsərrüfat Kreditləri üzrə Dövlət Agentliyi ilə rayon rəhbərliyinin apardığı danışıqlar sonda öz müsbət nəticəsini vermişdi. Həmin agentliyin maliyyə dəstəyi ilə rayonun xeyli kəndlərində, o cümlədən Şıxlar, Bərcan, Göyyeri, Canaxbulaq və digər yaşayış məntəqələrində uzunluğu üst-üstə 15 km-ə yaxın olan məsafədə təmir işləri müvəffəqiyyətlə aparılmışdır. Bu işlərin görülməsində təbii ki, daxili imkanlardan istifadə də unudulmamış və hətta məhz yerli imkanlara güvənən rayon rəhbərliyi daha bir neçə kəndin, yəni uzunluğu 20 kilometrə yaxın olan başqa bir layihənin də gerçəkləşməsi üçün qətiyyətli addımlar atmışdılar. Bu gün faktiki olaraq rayonun Yolocaq, həmçinin Sırıq-Horavar-Əngəvül, eləcə də Zeynələzir-Honuba-Şıxlar kəndləri arasındakı məsafələr də böyük müvəffəqiyyətlə təmir olunmuşdu və bu proses indi də davam etdirilir.

Ümumiyyətlə, bu gün Yardımlı rayonunda ölkə prezidenti cənab İlham Əliyevin sahibkarlığa, bölgənin inkişafına dair yeni işgüzar şəraitin yaradılması üçün qarşıya qoyduğu tapşırıqlar da uğurla həyata keçirilir. Elə bu məqsədlə rayonda fəaliyyət göstərən sahibkarlarla mütəmadi görüşlərin təşkili, onların təkliflərinin dinlənilməsi, problemlərinin aradan qaldırılması rayon icra hakimiyyəti başçısı Sevindik Hətəmovun və onun komandasının əsas vəzifələrindən biridir. Təbii ki, yaradılmış işgüzar şərait də öz növbəsində sahibkarlara təkcə cari plan-layihələrini deyil, həm də perspektiv plan-layihə reallaşdırmağa münbit şərait yaradır. Yəni Yardımlıda birmənalı şəkildə hər kəs bugünkü iqtisadi problemlərin aradan qaldırılması üçün mümkün olan bütün variantların öyrənilməsi, tətbiq edilməsi üçün əlindən gəlini etməkdə həm sərbəstdi, həm də qətiyyətlidir.

**(ardı var)**

**Əbülfət MƏDƏTOĞLU**